Aydın MUSTAFAYEV
AMEA Folklor İnstitutunun böyük elmi işçisi
E-mail: aydin.mustafayev73@gmail.com
ORCID ID: 0009-000973143655
https://doi.org/10.59849/2309-7949.2026.2.81

FOLKLOR MƏTNLƏRİNDƏ TƏBİƏT: MÜASİR EKOLOJİ PROBLEMLƏR KONTEKSTİNDƏ

Açar sözlər: xalq yaradıcılığı, folklor, təbiət, ətraf mühit, ekoloji problemlər, qloballaşma.

АННОТАЦИЯ
ПРИРОДА В ФОЛЬКЛОРНЫХ ТЕКСТАХ: В КОНТЕКСТЕ СОВРЕМЕННЫХ ЭКОЛОГИЧЕСКИХ ПРОБЛЕМ

В статье речь идет об образе природы, который отражается в азербайджанских фольклорных текстах и о проблемах, связанных с окружающей средой. В то же время научным путем исследуется живое познание и персонификация в мифо-ритуально-религиозных воззрениях. Как известно, особое место в фольклорных текстах занимает образ природы, который отличается богатой мифологической семантиткой. По мере того, как начинается формирование сакрального отношения и доверия к природе окружащий мир нашими предками воспринимается как живой. Мифологические образы, несущие в себе различную смысловую нагрузку в текстах, которые связаны с неодушевленными сушествами, такими как гора, камень, дерево и т.д., давая толчок цивилизации, привлекают внимание и в современную эпоху своей сакральностью, универсальностью. Окружаюший мир, природа считаясь живыми в представлениях древних тюрков ценились священно и имели особое значение в их системе убеждений. Образ природы, который занимает широкое место в мифологических мировоззрениях дреевних тюркских племен и отражает в себе богатые мифологическо-семантические представления, всегда сохранял свою актуальность в народном творчестве. Азербайджанские фольклорные тексты богаты мифологическими образцами, которые связаны с происхождением природы: земель, морей, рек, озер, гор, растений. Во все времена в сознании человека, который всегда чувствовал себя частью природы, охрана окружающнй среды, как проблема, была в центре внимания. Близкие и противоречивые проблемы взаимоотношений между природой и обществом проявляются в регулировании таких отношений, как количественные и качественные изменения, вытекая из характера социального бытия. Различные экологические проблемы проявляются в таких факторах, как резкое изменение климата, эрозия слоя почвы, загрязнения воздуха и воды, стихийные бедствия. Глобальные недостатки, такие как рост экологического загрязнения в современном мире, его последствия, продольственная безопасность и т.д., создают необходимость принятия превентивных мер на международном уровне. В заключении также отмечается, что храмы и светилища, которые состоят из гор, камней, деревьев, родников и других природных объектов, ценятся и охраняются как наше нематериальное культурное наследие, национально-духовное богатство. В статье, в качестве предмета исследования рассматривается образ природы, который широко воспевается в народном творчестве.

Ключевые слова: народное творчество, фольклор, природа, окружающая среда, экологические проблемы, глобализация

ABSTRACT
NATURE İN FOLKLORE TEXTS: İN THE CONTEXT OF MODERN ECOLOGİCAL PROBLEMS

In the article it is said about the image of nature and problems related to the environment reflected in the folklore texts of Azerbaijan. At the same time, in myth-ritual-religious views the personification of nature by living knowledge is scientifically investigated. As it is known, in folklore texts there is a special place for the image of nature, which is distinguished by its rich mythological semantics. As the sacred attitude and faith in nature begin to take shape, the environment is perceived by our ancestors as alive. The mythological images that carry different meaning and give impetus to civilization in texts related to inanimate beings such as mountains, stones, trees and others attract attention with their holiness and universality in modern times. The environment and nature were known alive and sacred in the imagination of the ancient Turks and held special importance in their belief system. The image of nature, which took a wide place in the mythological thinking of the ancient Turkic tribes and reflected the rich mythological-semantic ideas, has always retained its relevance in folk art. Azerbaijani folklore texts are rich in mythological examples of nature such as land, seas, rivers, lakes, mountains, plants. The environmental protection has always been a central problem in the minds of humanity, who feel themselves to be part of the nature. The close and contradictory problems among the relations of nature and society are evident in the regulation of such relations as quantitative and qualitative change, arising from the nature of social existence. The various environmental problems are appeared in the sharp climate change, erosion of the soil layer, pollution of air and water, natural disasters. In the modern world the global deficiencies such as the increasing environmental pollution, its consequences, food safety and others create the need to take preventive measures at the international level.

As a result, it is also noted that the temples and tombs consisting of natural objects such as mountains, stones, trees, springs and others are valued and protected as our intangible cultural heritage, national-spiritual wealth. The image of nature, widely glorified in folk art, is intended as a subject of the study in the article.

Keywords: folk art, folklore, nature, environment, environmental problems, globalization.

Xalq yaradıcılığı cəmiyyətin təbiətə münasibətini, ekoloji dünyagörüşünü əks etdirən ən qədim və zəngin ədəbiyyat formasıdır. Bu kontekstdə təbiət obrazları yalnız real mühitin təsviri funksiyasını daşımır, həm də semantik, simvolik, mənəvi məna yükü daşıyan bədii elementlər kimi çıxış edir. Dağlar, çaylar, ağaclar, güllər çiçəklər və digər komponentlər mətnlərin süjet xəttinin qurulmasını təmin etməklə yanaşı, həm də qəhrəmanların xarakterini, emosional, mənəvi dünyasını simvolik şəkildə ifadə edir. Çağdaş dönəmdə ekoloji problemlər belə mətnlərin, obrazların dəyərini yenidən aktuallaşdırır. Folklor mətnlərində təbiətin qorunması sosial-mənəvi dəyərlər sisteminin əsas komponentlərindən biri kimi çıxış edir. Təbiətə zidd davranışların mənfi nəticələri obrazların dili ilə göstərilir, insanın təbiətlə harmoniyada yaşaması ideyası vurğulanır. Obrazlı formada əkinçilik, su resurslarının mühafizəsi, yaşıllıqların qorunması və s. kimi həyati vacib ənənələr gələcək nəsillərə ötürülür. Bu obrazlar ətraf mühitdə ekoloji tarazlığın pozulmasının mənfi nəticələrini göstərərək ekoloji şüurun formalaşması funksiyasını yerinə yetirir.

Məlikməmməd nağılında Zümrüd quşu deyir: "Ey Məhəmməd, qirx ağaclıqda bir padşahın ölkəsi var. Bir əjdaha gəlib suyun qabağını kəsib. Nə qədər ərzuman pəhləvanlar gəlirsə, onu öldürə bilmirlər. Yeddi ildir ki, əjdaha suyun qabağını kəsib. Hər gün bir qız aparıb onun ağzına atırlar. Əjdaha qızı yeyəndə bir az su axır, camaat da su götürür"(Azərbaycan folklor külliyyatı, 2006: 77).

Məlikməmməd nağılında əjdahanın suyun qarşısını kəsərək su təminatını məhdudlaşdırması motivi mifoloji təfəkkürdə həyati əhəmiyyətli resurslar üzərində nəzarətin simvolu kimi çıxış edir. Çağdaş dövrümüzdə bu motiv dünyada təbii resursların ədalətsiz bölüşdürülməsi, ekoloji problemlər və sosial bərabərsizliklər kimi məsələlərlə səsləşir. Xüsusilə su ehtiyatları üzərində nəzarət uğrunda gedən geosiyasi proseslər bu mifoloji süjetin aktual şərhinə imkan yaradır və təbii resursların qorunması ideyası öz əksini tapır. Motivdə ənənəvi mədəniyyətin ekoloji problemlərə münasibəti əjdaha və Məlikməmməd obrazlarında aşkarlanır.

Məlikməmməd "bir də gördü ki, camaat kəbirdən-səğirə padşahın qızını suyun qabağına gətirdilər. Qızı əjdahanın ağzına atmaq istəyəndə Məlikməmməd irəli getdi, qılıncı sivirib əjdahaya elə bir qılınc vurdu ki, o, iki parça oldu. Padşaha muştuluqçu getdi. Təntənə ilə Məlikməmmədi padşahın yanına apardılar" (Azərbaycan folklor külliyyatı, 2006: 77).

Su ilə bağlı mifoloji təsəvvürlərdə həyatverici resursların qorunması ideyasını bitki elementlərində də aşkarlamaq mümkündür. Folklor mətnlərində bitki obrazı insan fəaliyyətinin təbiətə təsirini əks etdirməklə yanaşı, həm də ekoloji şüurun inkişafına xidmət edir. Beləliklə, xalq yaradıcılığı, həm insanın daxili aləmini, həm də təbiət ilə münasibətini formalaşdıran əhəmiyyətli vasitədir. Başqa sözlə, folklorda təbiətin qorunması və dəyərləndirilməsi həm mədəni, mənəvi, həm də ekoloji baxımdan aktualdır. "Məlikməmməd nağılı"nda müşahidə olunan digər bir epizodda deyilir: "Biri varmış, biri yoxmuş, bir padşah varmış. Bu padşahın da bağında bir alma ağacı varmış. Bu ağac birinci gün çiçək açarmış, ikinci gündə çiçəyini tökərmiş, üçüncü gündə bar verərmiş. Bu almanı hər kəs yeyərmiş, on beş yaşında oğlan olarmış. Padşah hər gün səhər tezdən sübh açılan kimi durub gedərmiş bağa ki, almanı dərib yesin, amma görərmiş ki, alma dərilib. Korpeşman geri qayıdarmış" (Azərbaycan folklor külliyyatı, 2006: 70).

Alma bolluq, məhsuldarlıq rəmzi olduğuna görə, bir çox xalqların folklorunda qıtlıq, aclıq qorxusunun, eyni zamanda, şər qüvvələrə qarşı mübarizənin simvolik ifadəsini təşkil edən geniş yayılmış motivlərdən biri kimi səciyyələndirilir. Atasının razılığı ilə bağın keşiyini çəkən Məlikməmməd gecə boyu yatmır. "Bir vaxt gördü ki, bir div gəlir, boyu minarə kimi, adam baxanda bağrı yarılır. Elə bilirsən bir dağ qopub gəlir" (Azərbaycan folklor külliyyatı, 2006: 71).

Div folklorda, adətən, dağıdıcı, fəlakət gətirən bir obraz olaraq qəbul edilir. "Məlikməmməd nağılı"nda da div ekologiyaya, ətraf mühitə zərər verən şər qüvvələrin ümumiləşdirilmiş obrazı kimi iştirak edir. O, cəmiyyətin həyat enerjisini mənimsəyən, əlindən alan qara qüvvələri təmsil edir. Məlikməmmədin divlə qırx gün, qırx gecə vuruşaraq onu öldürməsi epizodu qəhrəmanın təbii resursların qorunması uğrunda apardığı səylərin simvolik ifadəsidir.

Xalq yaradıcılığı ekoloji düşüncəni formalaşdıran və gələcək nəsillərə təbiəti sevməyi öyrədən mətnlərlə zəngindir. Bu mətnlər vasitəsi ilə cəmiyyətin mədəni-əxlaqi prinsipləri və ətraf mühit yaddaşı nəsillərarası transmissiya yolu ilə qorunur. Ekoloji şüurun formalaşmasında folklorun mifoloji qatında sakral məna daşıyan bitki komponentləri əsas maarifləndirici potensial kimi çox dəyərlidir. Çinar, alma, nar, buğda, müxtəlif çiçəklər və digər bitki motivləri həyatın davamlılığını, məhsuldarlıq və yenilənmə ideyasını simvollaşdırır. Mif mətnlərində təbiət obrazları və bitki motivləri həm xalqın qədim ekoloji biliklərini qoruyur, həm də müasir ekoloji və sosial düşüncənin formalaşmasına töhfə verir. A. F. Losev yazır:

"Hər bir mif həm mütərəqqi, həm də arxaik müxtəlif motivlərin tarixi kompleksini özündə birləşdirir. Hər bir mifin aparıcı, mütərəqqi meylini və onu müşayiət edən qalıqları araşdırmaq zəruridir. Bu qalıqlar onun inkişafının ən müxtəlif (əvvəlki) mərhələlərində bu və ya digər formada qalır, onun daxilində ən müxtəlif intensivlikdə təqdim olunur" (Лосев,1957: 18).

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycan folklorunda təbiət motivləri-torpaq, çaylar, bulaqlar, bitkilər və s. ekosistem elementləri olaraq ətraf mühitin qorunmasının mədəni-mənəvi əsaslarını, simvolik, funksional tərəflərini və ilkin modellərini özündə daşıyır. Hazırda yaşadığımız dünyada torpaqların səhralaşmasının nəticəsi olaraq məhsuldarlığın aşağı düşməsi, iqlim dəyişikliyi və çox sayda ekoloji-bəşəri problemlər dünya ölkələrində torpaq, su və digər sərvətlərdən səmərəli istifadə edilməsinin effektiv idarəçiliyini prioritet halına gətirir. Mifoloji düşüncədə su, hava və torpaq kainatın fundamental elementləri, həyatın əsas atributları kimi qiymətləndirilir. Fil.e.d. Şakir Albalıyev yazır: "Novruz bayramının əsas ritual-mifoloji atributları su, od, torpaq, külək, ağac kimi stixiyaları əhatə edir. Bu stixiyalar kosmosun xaosdan doğulmasının ilkin materialı kimi çıxış edir" (Albalıyev, 2020: 52).

Bizi əhatə edən maddi aləmin-təbiətin əbədi-əzəli tarazlığının pozulması, iqlim dəyişikliyi və bu kimi problemlərin canlı aləmə təsiri dünya xalqları arasında getdikcə daha çox qlobal problemlərdən biri kimi qəbul olunur. Bioloji müxtəlifliyin qorunması, nadir və nəsli kəsilməkdə olan flora və fauna növlərinin mühafizəsi, habelə torpaq eroziyalarının qarşısının alınması üçün yeni meşə zolaqlarının, yaşıllıqların salınması görülən tədbirlər sırasındadır. Folklor ənənəsində, mifoloji mətnlərdə ətraf aləm, yaşıllıqlar həmişə həyat mənbəyi olaraq dəyərləndirilir. Novruz mərasimlərində yaşıllıqlar dirilik və yenilənmə rəmzi kimi qəbul edilərək biomüxtəlifliyin qorunmasına və maarifləndirmə prinsiplərinə xidmət edir. Novruz inanclarında bitki kultu müasir ekologiya kontekstində mədəni dəyərlərin tənzimləyici rolu funksiyasında çıxış edir. Fil.ü.f.d. Sevinc Qasımova Novruz inanclarını, əski təbiət kultları haqqında təsəvvürləri tədqiqata cəlb edərək yazır: "Novruz inanclarının öyrənilməsi göstərir ki, babalarımız od, su, bitki, torpaq kimi təbiət ünsürlərini kultlaşdırmış, yəni bu ünsürlərin qeyri-adi varlıqlar olduğuna inanmış, onları müqəddəs varlıqlar hesab etmiş və bu ünsürlərlə bağlı mərasimi hərəkətlər icra etmişlər" (Qasımova, 2020: 54).

"Bağa baxarsan bağ olar, baxmazsan dağ olar" deyimi də mədəni-fəlsəfi bir ümumiləşdirmə olaraq insan-təbiət münasibətlərinin mahiyyətini yığcam şəkildə ifadə edir. Hələ əski çağlarda həyat mənbəyi sayılan ağac (bitki), "Kitabi-Dədə Qorqud" boylarında, qədim şumer dastanı "Bilqamıs" dastanında və bir çox mifoloji mətnlərdə ana başlanğıcı, məhsuldarlıq, bərəkət rəmzi kimi qəbul olunmuşdur. Dünyanın bir sıra xalqlarının təsəvvürünə görə Yer kürəsinin tam mərkəzində bir müqəddəs ağac, Həyat ağacı var. Mifoloji düşüncəyə görə bu ağac əbədi həyat bəxş edir. Qədim hind mifologiyasında da "Dünya ağacı" haqqında maraqlı təsəvvürlər var. İnanca görə, kainatın mərkəzində bir əncir ağacı mövcuddur. O, kosmosa dəstək rolunu oynayır və onu sabit tarazlıqda saxlayır. Kökləri dünyanın bir vaxtlar yarandığı ilkin sulara gedib çıxır. Tanrılar su eytiyaclarını bu ağac vasitəsilə təmin edirlər (Yevsyukov, 1968: 148).

Son onilliklərdə ətraf mühitin mühafizəsi, qlobal ekoloji böhranla bağlı fəsadların aradan qaldırılmasına çağırış müxtəlif aspektlərdə özünü büruzə verir.

Dünyada baş verən ictimai-siyasi, iqtisadi, sosial proseslər, sənayeləşmə atmosferə öz mənfi təsirini göstərir. Bu da, nəticə olaraq, ətraf mühit komponentlərinin qorunması, mühafizəsi üçün bir sıra metodların, layihələrin işlənib həyata keçirilməsini tələb edir. Təbii sərvətlərin, ekologiyanın qorunması bəşəriyyət üçün artıq prioritet hesab edilir. Ətraf mühitə qayğı, insan-təbiət münasibətləri davamlı olaraq türk mifologiyasında, folklor mətnlərində su, ağac, dağ, daş, günəş və digər obyektlərin kultlaşdırılması səviyyəsində öz dəyərini tapmışdır. Fil.e.d. Cəlal Bəydiliyə görə, "türk xalqlarının ənənəvi dünyagörüşlərində ağac insanların bir-biri ilə, təbiətin cəmiyyətlə bağlılığının bir rəmzi ifadəsiydi. ... "Bay terek", "Temir kavak" və ya "Həyat (Dünya) ağacı" deyilən mübarək üzlü "övliya ağac" inanışına tək bir türk mifologiyasında deyil, bir çox digər mifoloji sistemlərdə də rast gəlinir" (Bəydili (Məmmədov), 2007: 116).

Yaradılışın başlanğıcı sayılan, şəfaverici, qoruyucu və s. mifoloji funksiyaları özündə daşıyan ağacla bağlı inam və təsəvvürlərin həm türk, həm də dünya xalqları arasında geniş halda yaşantısı rituallara yönəlmiş baxışların və etiqadların, mədəni və dini ənənələrin nəticəsidir. Təbiətə, bitki örtüyünə olan ritual-simvolik, ekoloji-mədəni münasibəti əski dünyagörüşü ilə bağlı olan bədii bənzətmələrdə açıq-aşkar görmək olar: "Qollu-budaqlı, köklü-köməcli olasan", "min budaq olasan", yaxud "başı göylərə dəyən ağac", "çörək ağacı", "dilək ağacı", "ağac bar verəndə başını aşağı əyər", "yıxılan ağaca balta vuran çox olar", "tale ağacı", "səma ağacı", "Həyat ağacı", "dirilik ağacı", "övliya ağac", "cənnət bağı", "cənnət alması" kimi mifoloji və simvolik deyimlər min illərin təcrübəsinin nəticəsi olaraq yaranmışdır. Bitkinin, yaşıllığın insan həyatında oynadığı rol onu mifoloji düşüncədə kult səviyyəsinə qaldırmışdır. Fil.e.f.d. Aynur Babək Azərbaycan folklorunda inam və inanclarla bağlı qənaətlərini bölüşərək yazır: "İnamlar mif nüvəsindən şaxələnmiş müxtəlif folklor janrlarının poetik tələblərinə uyğun don geymiş, əfsanənin, nağılın, bayatının və s. ölçülərinə oturmuşdur ... Mifoloji ideya folklor obrazına çevrilərək yeni zamanda yaşamını sürdürmüş, zamanın tələblərinə cavab vermişdir" (Babək, 2011: 105).

Belə ibrətamiz kəlmələr çağdaş dönəmdə də yaşamaqda, əhəmiyyətini qorumaqdadır. Məsələn: "Ağacı, bağı-bağatı zəngin olan kəndin məzarlığı kiçik olar", "Yaşıllığı çox olan məmləkəti loğmanlar tanımaz", "Nə əkərsən, onu biçərsən", "Bağa bax üzüm olsun, yeməyə üzün olsun" və bu kimi fikirlər xalqımız tərəfindən yaşıllıqlara həmişə dəyər verildiyini göstərir. Minilliklər boyu bəşər övladı ətraf mühitlə iç-içə olub, təbiəti öz anası kimi müqəddəs dəyərləndirib, həm maddi, həm də mənəvi olaraq təbiətdən qidalanıb. Türk xalqlarının mifologiyasında geniş yayılmış "Ağoğlan" mif-əfsanəvi dastanında Ağoğlanın Dünya ağacının dibinə gələrək: "Mənim ağac xaqanım, sən məni böyütdün, boya-başa çatdırdın, indi isə mənə yol göstər, gələcəyimin necə olacağını bildir" – deməsi, mifoloji düşüncədə ağacın-bitkinin yaradılışın başlanğıcı olmasını açıq-aydın göstərən bir məqamdır (Seyidov, 1994: 223).

Azərbaycan folklor mətnlərində təbiət obrazları mədəni yaddaşın daşıyıcısı kimi çıxış edir: həm estetik, mənəvi, həm də sosial dəyərlərlə bağlı əhəmiyyətli rol oynayır. Əski dünya insanı həyatın xoş və sərt üzü ilə qarşılaşdıqca təbiət qanunlarını, ətraf aləmi daha yaxşı dərk etmək məcburiyyətində qalır, beləliklə, ekosistemə qarşı qutsal münasibət və inam formalaşır, ətraf mühitin qorunması və təbii resursların davamlı istismarı ilə bağlı davranış normativləri nizamlanırdı. Su-

ya, qidaya, silaha, geyimə olan tələbatını, başqa sözlə desək, maddi və mənəvi ehtiyaclarını təbiətdən alan, eyni zamanda, ətraf mühitin neqativ təsirlərinə məruz qalan əski çağ insanının mifoloji təsəvvür və baxışlarında bitki (yaşıllıqlar) yaradıcı, himayə edən və s. funksiyalarda təcəssüm olunur. Ətraf aləmdə baş verən hər hansı bir proses, yəni təbiətə müdaxilə canlı orqanizmlərin bir-biri ilə qarşılıqlı əlaqəsinə, bu və ya digər şəkildə, öz təsirini göstərir. "Nə əkərsən, onu biçərsən" xalq deyimi bizi əhatə edən zəngin və mürəkkəb maddi aləmdə gedən fiziki proseslərin, insan-təbiət münasibətlərinin bir-birinə təsirinin obrazlı şəkildə ifadəsidir.

Göründüyü kimi, folklor mətnləri, mifoloji bilgilər yalnız bədii-fantastik düşüncələrin məhsulu deyildir. Bu bədii-fantastik düşüncələrin kökündə xalqımızın min illər ərzində ətraf aləmlə bağlı qazandığı təcrübələri dayanır. Başqa sözlə desək, ətraf mühitdə baş verən təbii proseslər öz görkəmi və enerjisi ilə insanlarda bu cür fantastik təxəyyülün yaranmasına səbəb olmuşdur. Bir çox mətnlərdə yaşıllıqların, təbiətin mühafizəsinə diqqət obrazlı şəkildə özünü göstərir ki, bu, ekologiyanın qorunmasının erkən izlərinin folklorda yaşantısıdır. Bitkilər insanın daxili aləminə, hisslərinə, ruhuna, zövqünə emosional təsir göstərir. İnsan təbiətdən aldığı müsbət enerjiyə qarşı laqeyd qalmır, onu təsəvvürdə canlandırır, ilahiləşdirir. Ətraf aləm üzərində aparılan müşahidələr, fəsillərin dəyişməsi nəticəsində baş verən proseslər, təbiətin "ölüb-dirilməsi" mifoloji dünyagörüşün yaranmasında əsas şərt kimi dəyərləndirilməlidir. Əfsanələri mifoloji məna yükünə görə əsatirə ən yaxın janr kimi dəyərləndirən professor R.Əliyev qeyd edir ki, totemizm problemi ilə janr (əfsanə) arasındakı əlaqəni tarixi şüurun formalaşması nəticəsində mif mətninin əfsanə mətninə çevrilməsində axtarmaq lazımdır. Əgər mif əvvəlki dövrdə qanun rolunu oynayırdısa, öz rolunu itirdikdən sonra əxlaqi və milli-mənəvi dəyərlərin qorunmasına çevrilir (Əliyev, 2014: 87).

Qədim sivilizasiyanı yaşamış bütün xalqlar özlərini ətraf və təbii mühitdən heç vaxt ayırmamış və bu yanaşma mifoloji şüurda, mifoloji obrazlar sistemində özünəməxsus şəkildə əksini tapmışdır. Əski çağ dövrünün insanı günəşin yaradıcı xüsusiyyətini dəyərləndirir, istilik, enerji mənbəyi olduğunu düşünür, onu fövqəltəbii və müqəddəs bir varlıq kimi canlandırır, kultlaşdırır. Günəş obrazının şüurlarda nə qədər dərin iz buraxdığını "o işığa kor baxım ", "o işıq haqqı", "o gün haqqı" və yaxud "Günəşin şəfəqi, işığın bərəkəti", "Günəşin qarşısında kölgə durmaz", "Günəşin işığına baxan kölgəsiz qalmaz" kimi ifadələrdə görmək olur. Müasir dövrdə istehlakın kəskin artması, texnoloji və digər səbəblərdən təbii resursların azalması nəticəsində alternativ resurslardan istifadə olunur ki, bu da ətraf mühitdə tarazlığın pozulmasına, atmosferin çirklənməsinə, qlobal ekoloji böhrana səbəb olur.

Tanrı kainatı o qədər balanslı yaratmışdır ki, təbiətə edilən hər bir müdaxilə öz mənfi təsirini mütləq halda göstərir. Günəşdən gələn ultrabənövşəyi şüaların qarşısını almaq üçün ozon qatı mövcuddur ki, "antropogen faktorların", ozondağıdıcı maddələrin rolu nəticəsində bu təbəqənin dağılması müxtəlif cür xəstəliklərin yaranmasına, nəticədə flora və faunanın, təbiətin, canlı həyatın məhvinə gətirib çıxarda bilər. Folklor İnstitutunun elmi işçisi Vüsal Abiyev "Azərbaycan folklorunda Günəş və onun mifoloji sistemdə yeri" başlıqlı araşdırmasında yazır: "Günəş həyat verməklə, torpağı canlandırmaqla, bitkiləri cücərtməklə yanaşı, həm də yandırıb-yaxır. Məhz buna görə də qədim insanlar Günəşə yalvarıb, ona sitayiş etmişlər. Bəlkə, bu yolla da olsa, canlarını Günəşin yandırıcı

şüalarından qoruya bilsinlər. Günəşin bu xüsusiyyəti, nəhayət, ona tapınmağa gətirib çıxarmışdır. ... Əcdadlarımız Günəşi od mənbəyi hesab ediblər. İnsanlarda belə etiqad yaranıb ki, Günəşə, oda həmişə inam gətirmək gərəkdir. Odla zarafat etmək, oda su atmaq, odla oynamaq günah sayılıb" (Abiyev, 2016: 115).

Qədim türklərin inanc sistemində torpaq da kult olaraq mifoloji dəyər qazanmışdır. Həyatın yaranışında dörd ünsürdən biri olan torpaq canlılıq, bərəkət, həyat mənbəyi kimi qəbul olunmuş bir dünyagörüşüdür. Əkinçilik həyatında məhsuldarlığı təmin etmək üçün müxtəlif qurbanvermə ayinlərindən geniş istifadə edilmişdir. Torpağın düzgün istismarı qədim dövrlərdə olduğu kimi, bu gün də ekoloji tarazlığı qorumaq üçün əsas prinsiplərdən biri kimi qəbul olunur. "Torpağı sevməyən vətəni sevə bilməz", " çirkli əlinlə torpaqdan təmiz məhsul gözləmə", "torpaqsız xalq köksüz ağaca bənzəyər", "torpağı qoru, o da səni qoruyar", "torpaq insana çörək, insan da torpağa həyat verir", "torpağı dərin qaz, ruzini dərin yığ" kimi atalar sözləri və aforizmlər xalqın zəhmətə, mənəvi dəyərlərə, torpağa və təbiətə olan münasibətinin nəticəsində yaranmışdır. Fil.ü.f.d. Sevinc Qasımova torpaqla bağlı inancları araşdıraraq bu qənaətə gəlir: "Torpaq sadəcə cansız varlıq deyildir. Yəni insanlar onu canlı hesab etmişlər. Torpaq qışda yatır, yaxud "ölür" ... və yenidən dirilir. Torpaq dünyanın əsasını təşkil edən dörd ünsürdən biri kimi magik gücə malikdir. İnsanlar torpağa sayğı ilə yanaşarlarsa, torpaq da insanlara öz xeyir-bərəkətini verər" (Qasımova, 2020: 131) .

Tanrının bəxş etdiyi sərvətlərdən biri olan su da həyat mənbəyidir. Yer kürəsinin 71 faizini təşkil edən su, insan orqanizmində də təqribən 70 faiz olub, həzm sistemində, maddələr mübadiləsində əvəzsiz rola malikdir. Müasir tibb elminin gəldiyi qənaət budur ki, orqanizmdə su çatışmazlığı böyrək problemlərinə, təzyiq xəstəliyinə, psixi pozğunluqlara, baş ağrılarına və b. xəstəliklərin yaranmasına yol açır. Maraqlıdır ki, bitkilərdə də torpaqdan sorulan maddələr su vasitəsi ilə digər orqanlara ötürülür. Su çatışmazlığı bitkilərdə müxtəlif fəsadların yaranmasına, floranın tədricən məhv olmasına səbəb olur. Deməli, su maddəsi biosferin bütün canlılarını birləşdirən mühüm elementdir.

Suyun məişətdə, təsərrüfat həyatında, sənayedə, bir sözlə, təbiətdə rolu o qədər böyükdür ki, su ilə bağlı inanclar və obrazlar bütün dünya xalqlarının folklorunda öz əksini tapmışdır. Suyun mifoloji təsəvvürdə canlandırılması hadisəsində bir ümumilik olsa da, hər mədəniyyətdə özünəməxsus məna daşıyır. Fil.ü.f.d. Aynur Babək Azərbaycan folklorunda su ilə bağlı inamlar əsərində yazır: "Dünya mifologiyasının hamısında su dünyanın yaradılışının ilkin əsaslarından birini təşkil edir. O səbəbdən irəli gəlməklə su kosmoqonik mifin əsas ünsürü sayılır. Bu cəhətinə görə su stixiyası dünyanın mifoloji modelinin ilkin əsaslarından biri, bəlkə də, birincisidir. Çünki bir sıra mifologiyalarda su varlığın başlanğıcı olan xaosla eyniləşdirilmişdir" (Babək, 2011: 23) .

Yuxarıda qeyd etdiyimiz kimi, su həyata başlanğıc verən bir maddə olmaqla yanaşı, həm də mənəvi dünyamızın ayrılmaz bir hissəsidir. Təbiət elmlərinin və folklorun birləşdiyi nöqtədə su həm təbiət hadisəsi, həm də simvolik məna daşıyan obraz kimi çıxış edir. Suyun həyat üçün nə qədər gərəkli olduğunu və ona münasibəti "suya əyilən susuz qalmaz", "suyun qabağını kəssən daşar", "duru su həyat verər, çirkli su xəstəlik" və s. ibrətamiz ifadələrdə də görə bilirik.

Folklor qaynaqlarından bildiyimiz kimi, ətraf aləmin mühafizəsi, ekosistemlərin tarazlığını qorumaq şamanizm fəlsəfəsinin mahiyyətini əks etdirən amil-

lərdən olmuşdur. Bu fəlsəfənin mahiyyətində biomüxtəlifliyin qorunması, insanların təbiətlə harmoniyası ciddi davranış qaydası olaraq simvolizə edilirdi. Şamanlar təbiət ruhları ilə əlaqə qurub həm fiziki, həm psixoloji xəstəlik problemləri olanların dərdinə əlac etmək üçün ovsun xarakterli rituallar icra etməklə onlara qutsal ağaclar vasitəsilə Tanrıdan yardım diləyirdilər. Əski türk görüşlərinə görə həyatın, təbiətin kosmik düzənini qoruyan Həyat ağacı, paralel olaraq gəncliyin, təravətin, sağlamlığın, bolluq-bərəkətin, əmin-amanlığın, vətənin, əbədiliyin simvoludur. Şaman duaları ekoloji tarazlığı qorumağa, təbiət hadisələrini tənzimləməyə, müasir aspektdən yanaşsaq, təbii resursların istifadəsi və bərpası istiqamətində ekosistemlərin nəzəri və praktik səviyyəsini bədii şəkildə əks etdirir. Bu məzmunda bir şaman nəğməsində deyilir:

Doqquz yarpaqlı Bəy Qayın, Göy Tanrı!
Biz doqquz quzu kəsdik, Göy Tanrı!
Yağmur istəyirik, Göy Tanrı!
Məhsulun bol olmasını diləyirik, Göy Tanrı!
Həyat salamatlı olsun, Göy Tanrı! (Ergun, 2017: 251-252).

Bütün türk coğrafiyalarında bitki kultu ilə bağlı ayinlər, mərasimlər onların təbiətlə bağlı ən qədim inanc sistemini və milli kimliklərini qoruyub saxlamaqda bir vasitə olmuşdur. Əski türk dünyagörüşündə bitki kultu ilə bağlı inanc və təsəvvürlərdə zəngin mifoloji semantikası ilə seçilən təbiət obrazı xalq yaradıcılığında da öz aktuallığını qoruyub saxlayır. Yəni folklor yalnız mədəni yaddaşın daşıyıcısı deyil, ekosistemlərin stabilliyinin qorunmasında mənəvi aspektdən dolayı faydalı bir vasitədir. Əsrlər boyunca türk mədəniyyətinin mənəvi dəyərlərindən biri hesab olunan bitki kultu, və özünün mifoloji elementləri vasitəsilə maddi və mənəvi aləmi bir mərkəzdə birləşdirən Həyat ağacı insan-təbiət münasibətlərinin simvolik sistemini formalaşdırmışdır. Başqa sözlə desək, türk folklorunda həm Həyat ağacı, həm də Dünya ağacı simvolik anlamda ekoloji və kosmik anlayışların folklor mətnlərində əks olunmasını təmin edir. Professor S.Rzasoyun qeyd etdiyi kimi, "Dünya ağacı mediasiya vasitəsidir. Şaman/Qəhrəman Göyə və Yeraltına bu ağac vasitəsilə gedir" (Rzasoy, 2015: 357).

Azərbaycan folklor mətnlərində təbiətin: torpağın, bulaqların, çayların, göllərin, dağların, bitkilərin simvolik obrazlar vasitəsilə yad təsirlərdən qorunması, əslində, ekoloji davranış kodeksi olaraq böyük əhəmiyyət daşıyır. Müxtəlif ekoloji problemlər çağdaş dönəmdə kəskin iqlim dəyişikliyində, torpaq qatının eroziyaya uğramasında, hava və suların çirklənməsində, təbii fəlakətlər kimi amillərdə özünü büruzə verir. Müasir dünyada ekoloji çirklənmənin getdikcə artması, onun fəsadları, qida təhlükəsizliyi və s. kimi qlobal çatışmazlıqlar beynəlxalq səviyyədə önləyici tədbirlərin görülməsi zərurətini yaradır. Fil.e.d. Cəlal Bəydili türk esxatoloji təsəvvürlərindən bəhs edərək yazır: "Xaosu təmsil edən və əxlaqsızlığı, ədalətsizliyi yayan güclər yaradılış çağından bəri dünyanın tarazlığını, dünya nizamını pozmağa çalışan qüvvələrdir ki, esxatoloji miflərdə nizamlayıcı kosmosla dağıdıcı xaos arasındakı mübarizənin əsasında dayanır (Bəydili (Məmmədov), 2015: 242).

Nəticə olaraq onu da qeyd edək ki, tarixən müqəddəs məkan kimi qəbul edilən inanc yerlərimiz, dağ, daş, ağac, bulaq və s. təbiət obyektlərindən ibarət ta-

pınaqlar və ya məbədlər qeyri-maddi mədəni irsimiz, milli-mənəvi sərvətimiz kimi dəyərləndirilir və mühafizə edilir. Məbədlərin mühafizəsi yalnız mədəni irsimizin qorunması ilə nəticələnmir, həm də bu ərazilərdə yüzilliklər boyu formalaşmış landşaftın qorunmasına təbii şərait yaradır. Ümumiyyətlə, təbiətin qorunması, onun balanslı şəkildə istismarı, gələcək nəsillərə təbii və zəngin irsin ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. İnsan fəaliyyətinin intensivləşməsi nəticəsində təbii mühitdə baş verən dəyişikliklər bu problemin diqqət mərkəzində saxlanılmasını yenidən ön plana çıxarır. Ekosistemlərin davamlılığını, insan-təbiət münasibətlərində harmoniyanı qorumaq üçün təkcə elmi metodlardan deyil, eyni zamanda xalq təcrübəsindən, əski mədəniyyət və folklor ənənələrindən gələn qaydalar və biliklərdən də yararlanmaq, maariflənmək faydalı olar.

İşin elmi nəticəsi: Məqalədə xalq yaradıcılığında geniş tərənnüm olunan təbiət obrazı araşdırma predmeti kimi nəzərdə tutulmuşdur. Araşdırma zamanı Azərbaycan folklorunda təbiət obrazına, onun sosial və mədəni həyatımızda tutduğu rola xüsusi diqqət ayrılır. Vurğulanır ki, bütün dövrlərdə özünü təbiətin bir parçası hesab edən bəşər övladının düşüncəsində ətraf mühitin qorunması problem olaraq diqqət mərkəzində saxlanılmışdır. Ümumiyyətlə, folklor mətnlərində təbiət motivləri insan və ətraf mühit münasibətlərinin bədii ifadəsi kimi çıxış edir. Yəni təbiət obyektlərindən bitkiyə, suya torpağa, bir sözlə, ətraf aləmə qayğı xalq yaradıcılığında hər zaman aktuallığını qorumuşdur.

ƏDƏBİYYAT

1) Abiyev, V. "Azərbaycan folklorunda Günəş və onun mifoloji sistemdə yeri", "Dədə Qorqud", Elmi-ədəbi toplu. Bakı: Elm və təhsil, 2016/1.

2) Albalıyev, Ş. Xalq bayramları probleminin nəzəri əsasları və Novruz. Bakı: Təknur, 2020, 202 səh.

3) Aynur, B. Azərbaycan folklorunda su ilə bağlı inamlar, Bakı: Nurlan, 2011, 212 səh.

4) Azərbaycan folklor külliyyatı, 1-ci c., Nağıllar, Bakı: Səda, 2006, 400 səh.

5) Bəydili (Məmmədov), C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı: Mütərcim, 2007, 272 səh.

6) Bəydili (Məmmədov), C. İstiqbal xalq ədəbiyyatınındır. Bakı, 2015, 312 səh.

7) Əliyev, R. Türk mifoloji düşüncəsi və onun epik transformasiyaları, Bakı: Elm, 2014, 332 səh.

8) Qasımova, S. Novruz inanc mətnləri və onların poetikası. Bakı: Elm və təhsil, 2020, 152 səh.

9) Seyidov, M. Qam-Şaman və onun qaynaqlarına ümumi baxış. Bakı, 1994, 232 səh.

10) Rzasoy, S. Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi. Bakı-2015, 436 səh.

11) Ergun, P. Türk Kültüründe Ağac Kültü. Ankara, Atatürk Merkezi, 2017

12) Лосев, А.Ф. Античная мифология – Москва, 1957

13) Евсюков, В. В. Мифы О Вселенной, Академия НАУК СССР Сибирское Отделение 1968, 172 s, 148).